2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 yanvar 2020-ci il tarixli, 15 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 15 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Ağarzayev Kərim Rasim oğlunun namizədliyinin irəli sürülməsinin təsdiq olunub-olunmamasına dair 60 saylı Salyan - Neftçala seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası), qərarının ona təqdim edilmədiyini və bununlada dairə seçki komissiyasının hərəkətsizlik etməsi iddiası ilə bağlı 13 yanvar 2020-ci il tarixli 15 saylı müraciətini araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimata uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

K.R.Ağarzayev müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürməsi barədə bildirişi və öhdəlik ərizəsini 2019-cu il dekabr 31-də dairə seçki komissiyası təqdim etmiş, sənədlərin qəbulu edilməsi barədə ona arayış verilmişdir. Dairə seçki komissiyası tərəfindən namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar və imza vərəqələri ona təqdim edilməmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. O, iclasda iştirak edəcəyini bildirsə də, iclasda iştirak etmək üçün

Komissiyanın inzibati binasına gəlmiş və iclasda iştirak etməkdən imtina etmişdir.

Araşdırma zamanı dairə seçki komissiyası tərəfindən təqdim olunmuş 31 dekabr 2019-cu il tarixli 41/101 saylı qərardan müəyyən edilir ki, K.R.Ağarzayevin namizədliyinin irəli sürülməsi təsdiq edilmişdir. Həmin qərarın namizədə təqdim edilməməsi barədə dairə seçki komissiyasının izahatında göstərilir ki, namizəd K.R.Ağarzayevə namizədliyinin təsdiq olunması barədə məlumat verilmiş və imza vərəqələrinin götürülməsi təklif edilmişdir. O imza vərəqələrini səlahiyyətli nümayəndəsi tərəfindən götürüləcəyini bildirmişdir. Bildirişdə səlahiyyətli nümayəndəsi kimi Kərimov Rəcəb Nəcəf oğlu göstərsə də, onun səlahiyyəti müvafiq qaydada rəsmiləşdirilməmişdir. 2020-ci il yanvarın 6-da R.N.Kərimov dairə seçki komissiyasına gələrək imza vərəqələrini tələb etmiş, ona səlahiyyətli nümayəndə kimi notariat tərəfindən təsdiq edilmiş vəkalətnamə verilmədiyi bildirilmiş vəkalətnamənin formasını ona verilərək, izah edilmişdir ki, müvafiq qaydada rəsmiləşdirilmiş vəkalətnaməni təqdim etdiyi halda imza vərəqələri ona verilə bilər.

Bundan sonra namizəd özü və ya onun müvafiq qaydada rəsmiləşdirilmiş səlahiyyətli nümayəndəsi dairə seçki komissiyasına gəlməmiş, ancaq 2020-ci il yanvarın 10-da namizəd K.R.Ağarzayev dairə seçki komissiyasına gələrək namizədliyinin qeydə alınmasından imtinaya dair qərar tələb etmişdir. Ona namizədliyinin irəli sürülməsinin təsdiq edilməsinə dair qərar və imza vərəqələri təqdim edilmiş, o isə həmin sənədləri qəbul etməkdən imtina etmişdir. Bununla bağlı dairə seçki komissiyası 2020-ci il yanvarın 10-da akt tərtib etmişdir.

Beləliklə, müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması ilə K.R.Ağarzayevin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi ilə bağlı dairə seçki komissiyasının iddia edilən hərəkətsizliyi öz təsdiqini tapmadığından müraciət əsassız hesab edilərək təmin olunmamalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2020-ci il dekabrın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Ağarzayev Kərim Rasim

oğlunun 13 yanvar 2020-ci il tarixli 15 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Bu rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov